# *Baş prokuror:* "Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq-mühafizə orqanları ilə əməkdaşlığın inkişafı prioritetdir"

**"Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi prioritetdir". Bunu baş prokuror Kamran Əliyev "Türk Dövlətlərinin hüquq tətbiqetmə fəaliyyətlərində rəqəmsallaşma və inteqrasiya" mövzusunda keçirilən beynəlxalq konfransda deyib.**

Bildirilib ki, tarixi bağlarımız, ortaq dinimiz və dilimizlə qardaşlıq münasibəti olan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq-mühafizə orqanları ilə



əməkdaşlıq əlaqələrinin daha da inkişafı prioritet məsələlərdəndir. Qeyd edilib ki, 2021-ci il noyabrın 1-də Bakıda Türk Dövlətləri Təşkilatının Baş Prokurorlar Şurasının yaradılması da bu istiqamətdə atılan mühüm addımlardan biri idi. Bu şura üzv ölkələrin hüquq-mühafizə orqanları arasında əməkdaşlığı daha da dərinləşdirəcək və səmərəli fəaliyyət göstərmələrinə imkan verəcək.

"Sahəvi dövlət qurumlarını birləşdirən şuralar türk dövlətləri arasında səmərəli əməkdaşlığın inkişafı üçün təqdirəlayiq platformadır. Bu şuralar vasitəsilə türkdilli ölkələr arasında bütün sahələrdə əməkdaşlıq daha da irəli gedəcək", - deyə baş prokuror əlavə edib.

Azərbaycan.- 2024.- 5 iyun (№117).- S.7.